DÜNYA XƏBƏRLƏRİ

Rusiyanın Zaporojyeyə hücumunda iki nəfər ölüb

Noyabr 24, 2026



Zaporojyeyə hücum

Noyabrın 24-nə keçən gecə Rusiya qoşunları Zaporojyeyə hücum edib, iki nəfər həlak olub, 32 nəfər xəsarət alıb. Bu haqda Zaporojye vilayət hərbi administrasiyasının rəhbəri vəzifəsini icra edən **Mixail Semikin** məlumat verib.

Xəsarət alanlar arasında dörd uşaq var.

Zərbə nəticəsində fərdi yaşayış evi tamamilə, beşmərtəbəli bina isə qismən dağılıb. Çoxmərtəbəli və fərdi yaşayış evlərinə, avtomobillərə və nəqliyyat infrastrukturu obyektinə ziyan dəyib.

Pavloqradda isə iki nəfər xəsarət alıb. Vinnitsada infrastruktur obyekti hədəfə alınıb, trolleybus və avtomobil zədələnib, bir nəfər xəsarət alıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur